AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

UNEC

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

**Təsdiq edirəm:** ______________________

**"Maliyyə və audit"** kafedrasının müdiri
i.e.d., prof. Ə.Ə.Ələkbərov
*Tarix: 11sentyabr 2025*

***SIĞORTA** fənni üzrə işçi tədris proqramı*
(SİLLABUS)

**I.Fənn haqqında məlumat:**

| | |
|---|---|
| Fənnin kodu: | *00788* |
| Fənnin növü: | *Seçmə* |
| Tədris ili: | *2025/2026* |
| Fənnin tədris semestri: | *payız* |
| Fakültə (lər): | *Maliyyə və mühasibat*<br>*Biznes və menecment* |
| Qrup: | *632,634,636, 638,640, 946,948* |
| Tədris yükü: | *30/30* |
| Kredit sayı: | *7 (yeddi)* |

**II.Müəllim haqqında məlumat**

| | |
|---|---|
| Fənni tədris edən müəllim:<br>E-mail ünvanı: | *Prof.N.N.Xudiyev*<br>*xudiyev_nizami@mail.ru*<br>*B/m.Əliyev N.Ş*<br>*navai_aliyev@yahoo.com*<br>*b/m. N.S.Babayev*<br>*nusret.babayev@gmail.com* |
| İş telefonu: | *012 492 58-31* |
| Tələbələr üçün qəbul günləri: | *V gün saat $13^{00}$-$18^{00}$* |

**III. Fənnin təsviri:**

Sığorta fəaliyəti müasir iqtisadiyyatın ən mühüm seqmentlərindən biridir. O, sosial-sferanın ayrılmaz ünsürü kimi hər bir ölkənin sosial-iqtisadi həyatında böyük rol oynayır. Müasir sığorta işinin nəzəriyyə və praktikasını öyrənmək yüksək hazırlıqlı iqtisadçı kadrların hazırlanmasında əvəzsiz bir vasitədir.

**IV. Fənnin məqsədi və vəzifələri:**

Fənnin tədrisinin məqsədi tələbələrə müasir sığorta proqramlarına uyğun sığorta işinin nəzəri və praktiki məsələlərini çatdırmaqdır. Bundan başqa, sığorta bazarı , əmlak və şəxsi sığortası, sahibkarlıq risklərinin sığortası , təkrar sığorta, sığortanın maliyyəsi, sığorat ehtiyatlarının idarə edilməsi, sığorta risklərinin təhlili və digər məsələlərinin nəzəri-metodiki cəhətlərinin tələbələrə izah olunması kursun əsas məqsədini təşkil edir.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- Sığortanın iqtisadi məzmunun və funksiyalarının öyrənilməsi;
- Müasir sığorta bazarının təsnifatının öyrənilməsi
- Müxtəlif sığorta növlərinin xarakterik xüsusiyyətlərinin araşdırılması
- Sığorta təşkilatlarının iqtisadiyyatı və maliyyə məsələlərinin öyrənilməsi
- Dünya sığorta bazarlarının fərqləndirilməsi

**IV. Öyrənmənin nəticələri:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

***Bilməlidirlər:***

- Sığorta elmində istifadə olunan əsas anlayışlar, kateqoriyalar;
- Sığorta bazarının təşkili prinsiplərini;
- Sığorta sistemində maliyyə münasibətlərinin xüsusiyyətlərini
- Müasir şəraitdə sığorta sahəsindəki mövcud problemləri;
- Sığorta haqqında yazan müəlliflərin aparıcı dərsliklərinin əsas tədqiqat nəticələrini, yerli və xarici dərslikləri.

***Bacarmalıdırlar:***

- əlaqəli iqtisadi hadisələrin, proseslərin və institutların makro və mikro səviyyədə təhlilini
- müstəqil tapşırıqların yerinə yetirilməsi məlumatların toplanılması, vəzifələri həll etmək üçün zəruri məlumatların təhlili;
- sığorta sahəsində baş verən yerli və xarici hadisələr haqqında statistikaların təhlili və şərhi

**VI. Fənnin mühazirə mövzuları**

Fənn 15 mühazirə mövzusundan ibarətdir. Hər bir mövzuya 4 saat olmaqla (2 saat mühazirə və 2 saat seminar-məşğələ ) vaxt ayrılır.

1) Sığortanın mahiyyəti və zəruriliyi
2) Müasir sığortanın təsnifatı
3) Sığorta bazarı
4) Sığorta tədiyyələrinin hesablanması əsasları
5) Sığorta marketinqi
6) Əmlak sığortası
7) Şəxsi sığorta
8) Məsuliyyətin sığortası
9) Sahibkarlıq risklərinin sığortası
10) Təkrarsığorta
11) Sığortaçının iqtisadiyyatı və maliyyəsi
12) Sığortaçının maliyyə potensialı
13) Sığorta investisiyalarının təşkili
14) Sığortada uçot və nəzarət
15) Dünya sığorta bazarları

**VII. Prerekvizitlər**

yoxdur

**VIII. Fənnin tədris metodologiyası**

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin aparılması, kicik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse və yaxudsərbəst işlərin yazılmasıvə test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədrisvə təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli ədəbiyyatdan, habelə beynəlxalq və yerli mətbuatdan (internet resurslarından) göturulmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzkirasinə və məntiqi nəticələr

çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalasdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edecəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) qiraət materialları ilə tanış olmalıdırlar.

## IX. Əsas dərslik və ədəbiyyat


1. “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı, 25.12.2007 (sonrakı dəyişiklik və əlavələrlə)
2. “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı, 24.06.2011 (sonrakı dəyişiklik və əlavələrlə)
3. Ə.Ə.Ələkbərov, B.X.Ataşov, N.N.Xudiyev “Siğorta işi”. Bakı, 2018.
4. N.N.Xudiyev “Sığorta işi:müasir kurs” Dərslik. ADİU, Bakı, 2015.
5. İbrahimov E.R., Hüseynov M.C. və b. “Sığorta işi” Dərslik. Bakı, 2017.
6. www.cbar.az


Hər bir mövzu üzrə müəllimin mühazirə mətnləri və təqdimatları elektron-kabinetə yerləşdirilir. Hər bir mövzu ilə bağlı müəllim əlavə olaraq xüsusi ədəbiyyat təklif edə bilər.

## X. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqları, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında “Virtual universitet” bölməsində (www.vu.aseu.az) yerləşdirilir.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | Sığortanın mahiyyəti və zəruriliyi | Bir iqtisadi kateqoriya kimi sığortanın zəruriliyi.<br>Sığortanın funksiyaları.<br>Sığorta iqtisadi kateqoriyasının spesifik xüsusiyyətləri.<br>Sığorta fondu və onun təşkili formaları.<br>Müasir maliyyə sistemində sığortanın yeri və rolu. | Ə.Ə.Ələkbərov, B.X.Ataşov, N.N.Xudiyev “Siğorta işi”. Bakı, 2018 Səh. 6 |
| 2 | Müasir sığortanın təsnifatı | Sığorta münasibətlərinin təsnifatlaşdırılması və terminlərin qruplaşdırılması.<br>Sığortada tətbiq olunan əsas anlayışlar.<br>Sığortanın əsas cəhətləri.<br>Sığorta növləri və aparılma formaları.<br>Sığortanın icbari və könüllü | N.N.Xudiyev “Sığorta işi:müasir kurs” Dərslik. ADİU, Bakı, 2015 |

| | | | |
|---|---|---|---|
| | | formalarının təşkili prinsipləri. | |
| 3 | Sığorta bazarı | Sığorta bazarının sosial-iqtisadi məzmunu.<br>Sığorta bazarının ümumi xarakteristikası.<br>Sığorta bazarının tənzimlənməsində dövlət sığorta nəzarətinin rolu və funksiyaları.<br>Milli sığorta bazarının formalaşması və inkişafının müasir problemləri | Ə.Ə.Ələkbərov, B.X.Ataşov, N.N.Xudiyev "Siğorta işi". Bakı, 2018 |
| 4 | Sığorta tədiyyələrinin hesablanması əsasları | Sığorta xidmətinin spesifik əmtəə kimi qiyməti.<br>Sığorta tədiyyəsinin strukturu.<br>Sığorta tədiyyəsinin hesablanmasının əsas xüsusiyyətləri.<br>Sığorta tarifi və tarif siyasəti.<br>Netto-tarifin və brutto-tarifin hesablanması.<br>Netto-tarifə əlavə və onun hesablanması. | Ə.Ə.Ələkbərov, B.X.Ataşov, N.N.Xudiyev "Siğorta işi". Bakı, 2018 |
| 5 | Sığorta marketinqi | Sığorta fəaliyyətində marketinq.<br>Sığortanın təşkilinin hüquqi prinsipləri.<br>Sığorta marağı sığortaçının əsas hüquqi prinsipi kimi | Ə.Ə.Ələkbərov, B.X.Ataşov, N.N.Xudiyev "Siğorta işi". Bakı, 2018 |
| 6 | Əmlak sığortası | Əmlak sığortasının mahiyyəti.<br>Əmlak sığortasının təşkili prinsipləri.<br>Zərərlərin ödənilməsi üzrə sığorta qiyməti və sığorta məbləğinin müəyyənləşdirilməsi.<br>İkiqat sığortalanma və onun aradan qaldırılması yolları.<br>Zərərlərin ödənilməsində sığortalıların iştirakı.<br>Zərərlərin ödənilməsi formaları. | Ə.Ə.Ələkbərov, B.X.Ataşov, N.N.Xudiyev "Siğorta işi". Bakı, 2018 |
| 7 | Şəxsi sığorta | funksiyaları və əsas şərtləri.<br>Şəxsi sığortanın tətbiqi prinsipləri.<br>Həyat sığortası üzrə mənfəət və bonus.<br>Bədbəxt hadisələrə qarşı sığorta.<br>Tibbi sığorta. | Ə.Ə.Ələkbərov, B.X.Ataşov, N.N.Xudiyev "Siğorta işi". |

| | | | |
|---|---|---|---|
| | | Şəxsi sığortada riyazi ehtiyatlar. | Bakı, 2018 |
| **8** | Məsuliyyətin sığortası | Məsuliyyət sığortasının mahiyyəti və zəruriliyi.<br>Məsuliyyət sığortası üzrə ümumi əsaslar.<br>Fərdi həyat üzrə məsuliyyət sığortası.<br>Müəssisələrin məsuliyyətinin sığortası.<br>Peşə məsuliyyətinin sığortalanması.<br>Ətraf mühitə zərər vurulması ilə bağlı məsuliyyət sığortası.<br>Avtomülki məsuliyyətin sığortalanması. | Ə.Ə.Ələkbərov, B.X.Ataşov, N.N.Xudiyev “Siğorta işi”. Bakı, 2018 |
| **9** | Sahibkarlıq risklərinin sığortası | Sahibkarlıq fəaliyyəti obyektlərinin xarakteristikası.<br>Kommersiya risklərinin sığortalanması.<br>Istehsalda boşdayanma hallarında sığortalanma.<br>Yeni texnika və texnologiya tətbiqinin sığortalanması.<br>Birja və valyuta risklərinin sığortalanması | Ə.Ə.Ələkbərov, B.X.Ataşov, N.N.Xudiyev “Siğorta işi”. Bakı, 2018 |
| **10** | Təkrarsığorta | Təkrarsığortanın mahiyyəti və zəruriliyi.<br>Təkrarsığortada tətbiq olunan əsas anlayışlar.<br>Təkrarsığorta müqavilələrinin növləri.<br>Proporsional təkrarsığorta.<br>Qeyri-proporsional təkrarsığorta.<br>Təkrarsığorta və retrosessiya.<br>Təkrarsığorta institutunun inkişaf istiqamətləri. | Ə.Ə.Ələkbərov, B.X.Ataşov, N.N.Xudiyev “Siğorta işi”. Bakı, 2018 |
| **11** | Sığortaçının iqtisadiyyatı və maliyyəsi | Sığortaçının maliyyəsinin təşkilinin ümumi prinsipləri.<br>Sığortaçının gəlirləri.<br>Sığortaçının xərcləri.<br>Sığortaçının maliyyə nəticələri.<br>Sıgortaçının vergiyə cəlbedilməsi.<br>Sığortada əmək ödənişi sistemləri. | Ə.Ə.Ələkbərov, B.X.Ataşov, N.N.Xudiyev “Siğorta işi”. Bakı, 2018 |
| **12** | Sığortaçının maliyyə potensialı | Sığorta sistemində maliyyə resursları. | Ə.Ə.Ələkbər |

| | | | |
|---|---|---|---|
| | | Sığortada maliyyə potensialının formalaşması mexanizmi.<br>Sığortaçının xüsusi kapitalı.<br>Sığortaçının cəlbedilmiş vəsaitləri.<br>Texniki ehtiyatlar və onların formalaşması.<br>Həyat sığortası üzrə ehtiyatlar | ov, B.X.Ataşov, N.N.Xudiyev “Sığorta işi”. Bakı, 2018 |
| **13** | Sığorta investisiyalarının təşkili | Sığorta ehtiyatları – investisiya fəaliyyətinin potensial əsasları kimi.<br>Investisiya çantası və onun formalaşması xüsusiyyətləri.<br>Sığorta ehtiyatlarının yerləşdirilməsi prinsipləri.<br>Sığorta investisiyalarının prioritet istiqamətləri.<br>Investisiya əməliyyatlarının səmərəliliyi.<br>İnvestisiya siyasəti və onun hazırlanması. | Ə.Ə.Ələkbərov, B.X.Ataşov, N.N.Xudiyev “Sığorta işi”. Bakı, 2018 |
| **14** | Sığortada uçot və nəzarət | Sığorta şirkətlərində mühasibat, operativ və statistik uçotun təşkili.<br>Sığorta sistemində hesablar planı.<br>Sığorta şirkətinin balansı və onun strukturu.<br>Sığorta işində hesabat və onun təşkili. | Ə.Ə.Ələkbərov, B.X.Ataşov, N.N.Xudiyev “Sığorta işi”. Bakı, 2018 |
| **15** | Dünya sığorta bazarları | Sığorta sistemində qloballaşma və dünya sığorta bazarı.<br>Xarici ticarət və onun tənzimlənməsində sığortanın rolu.<br>Avropa İttifaqı ölkələrində sığorta bazarları.<br>ABŞ və Yaponiya sığorta bazarları.<br>MDB məkanı ölkələrində sığorta bazarları | Ə.Ə.Ələkbərov, B.X.Ataşov, N.N.Xudiyev “Sığorta işi”. Bakı, 2018 |

**XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;

3) Mövzu üzrə tövsiyyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;

4) Seminar məşğələsində müzakirəyə cıxarilan hər bir sual üzrə qısa çıxış hazırlamalı; 5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir. T

ələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə nəzərə alınır:

- 10 bal:5 bal
- 9 bal: 4,5 bal
- 8 bal : 4baI
- 7 bal: 3,5bal
- 6 bal: 3 bal
- 5 bal: 2,5 bal
- 4bal: 2bal
- 3 bal:1,5 bal
- 2bal: I bal
- I bal:0,5 bal

Seminar balları əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir. B = (((bI +b2+b3+.".+bn)/s)*m)/l0

Burada, B - yekun aktivlik bah; b - seminar dərslərində alınan müxtəlif ballar s - semestr ərzində verilən cavabların sayı

m - aktivlik bahna aynlan maksimal bal;

l0 - bir seminar dərsində toplanan maksimal baldır.

Tələbə semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 bah toplamış olur. Bu halda nəticə sistemdə ((( 1 0+ 1 0+ 1 0+ 1 0)l 4)* 20)l 70 : 20 olaraq hesaba alınır. Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-ct,7-ci ve s. Cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında tələbəyə cavab verməsi imkanı yaradır.

**XIII. Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**XIV Fənn üzrə ara və aralıq qiymətləndirmə**

Ara qiymətləndirmə hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada 8-ci və 9-cu tədris həftələri ərzində, aralıq qiymətləndirmə isə semestrin sonunda test üsulunda keçirilir

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirilir.

Balların maksimum miqdarı – 100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır . Fənn üzrə tələbənin əldə edə biləcəyi yekun balın strukturu aşağıdakı cədvəldə təqdim edilib:

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Aralıq qiymətləndirmə | 50 | 50% |
| Ara qiymətləndirmə | 30 | 30% |
| Auditoriya qiymətləndirməsi | 20 | 20% |
| **Cəmi:** | 100 | 100% |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

| | | |
|---|---|---|
| 51 baldan aşağı olduqda | - "qeyri-kafi" | - F |
| 51-60 bal | - "qənaətbəxş" | - E |
| 61-70 bal | - "kafi" | - D |
| 71-80 bal | - "yaxşı" | - C |
| 81-90 bal | - "çox yaxşı" | - B |
| 91-100 bal | - "əla" | - A |

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.